| | "İODICO" MMC-nin SİYASƏTLƏRİ | Sənəd kodu | "İODİCO"/İMS/SİYASƏT/02 |
|---|---|---|---|
| | | Təftiş tarixi | 03.09.2024 |
| | | Təftiş № | 01 |

"Təsdiq edirəm"
"İODİCO" MMC-nin baş direktoru
______________ R.C.Xəlilov
«03» 09 2024 -cü il

## SAĞLAMLIQ VƏ TƏHLÜKƏSİZLİK SİYASƏTİ

İODİCO MMC bütün işçilər, podratçılar, eləcə də müştərilər, ziyarətçilər və ictimaiyyət nümayəndələri üçün təhlükəsiz və sağlam iş yerinin təmin edilməsinə və saxlanmasına sadiqdir. Sağlamlıq və təhlükəsizlik baxımından müəssisə tərəfindən həyata keçirilən bütün əməliyyatları yerli qanunvericilik və ISO 45001:2018 beynəlxalq idarəetmə standartlarına uyğun şəkildə yerinə yetirilir.

"İODİCO" MMC-nin öhdəlikləri:

- ✓ Sağlamlıq və əməyin mühafizəsi siyasətinin həyata keçirilməsi və insanların sağlamlığı, rifahı və təhlükəsizliyinin təmin edilməsi, eləcə də iş yerində avadanlıqların qorunması;
- ✓ İş proseslərində olan riskləri dəyərləndirmək, onları təhlil etmək və minimuma endirmək;
- ✓ İşçilərin sağlamlıq və təhlükəsizlik baxımından biliklərinin artırılmasını təmin etmək məqsədilə xarici və daxili təlimlər təşkil etmək;
- ✓ İş yerində baş verə biləcək qəza və peşə xəstəliklərinin qarşısının alınması;
- ✓ Baş verən hadisələr barədə araşdırmaların və qeydlərin aparılması, hadisələrin təkrar baş verməməsi üçün düzəldici tədbirlərin görülməsi;
- ✓ Bütün qəza-xilasetmə, yanğınsöndürmə və təhlükəsizlik baxımından son dərəcə vacib olan avadanlıqların qanunvericiliyin tələblərinə və istehsalçıların tövsiyələrinə uyğun olaraq müntəzəm monitorinqini, yoxlanılmasını və texniki qulluğunu təmin etmək;
- ✓ İstehsalatda olan çatışmazlıqları tam şəkildə bilmək üçün işçiləri də cəlb etməklə sağlamliq və təhlükəsizlik mövzularinda iclaslar keçirmək;
- ✓ Daxili auditlər keçirməklə çatışmazlıqların və uyğunsuzluqların aşkar edilməsi və vaxtında həll edilməsi;
- ✓ "Ən Yaxşı" sağlamliq və təhlükəsizlik təcrübələrinin tətbiqini həyata keçirmək;
- ✓ Hər kəsin bu siyasətin həyata keçirilməsinə kömək edə biləcəyi bir mədəniyyətin yaradılması və dəstəklənməsi;
- ✓ Sənayemizdə SƏTƏM standartlarını yüksəltmək üçün tərəflər, tələbələr, işçilər, tərəfdaşlar, nizamlayıcılar, qonşular, təchizatçılar və podratçılarla birgə fəaliyyətin göstərilməsi;
- ✓ Davamlı inkişaf üçün hədəf və məqsədlərin seçilməsi, fəaliyyətlərin izlənməsi, hesabatı və inkişaf məqsədli yeni qərarların verilməsi.

Şirkətin rəhbərliyi bu siyasətin həyata keçirilməsinə cavabdehdir. Bu siyasət bütün işçilərə və podratçılara çatdırılır.Ofis, sex və sahələrdə bildiriş lövhələrində göstərilir.